E-1511

Azərbaycan Respublikası
Standartlaşdırma, Metrologiya və Patent üzrə
Dövlət Komitəsi
Apellyasiya şurasının
Qərarı

Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə
Dövlət Komitəsinin
Apellyasiya şurası

Z.T.Hacıyevin sədrliyi ilə,

üzvlər–N.F.Nəsibova, R.N.Hüseynəliyev

etiraz ərizəsini verən iddiaçı "Johnson & Johnson, a New Jersey corporation*" /ünvan:* One Johnson & Johnson Plaza, New Brunswick, New Jersey, 08933-7001, USA / nümayəndəsi patent müvəkkili T.A.Yaqubovanın iştirakı ilə,

Z.T.Hacıyevin məruzəsilə etiraz üzrə işə baxaraq müəyyən etdi:

25.01.2018 il tarixdə "Johnson & Johnson, a New Jersey corporation" aid "ONETOUCH SELECT PLUS SIMPLE" adlı əmtəə nişanının *(*2016 32729 *saylı iddia sənədi)* 10-cu sinifin əmtəələri üzrə qeydiyyata alınmasına dair ekspertizanın 26.09.2017 il tarixli qərarına qarşı iddiaçının nümayəndəsi patent müvəkkili T.A.Yaqubova tərəfindən "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikası Qanununun 15-ci maddəsində nəzərdə tutulmuş əsaslara görə Apellyasiya şurasına etiraz ərizəsi daxil olmuşdur.

Etiraz ərizəsi onunla əsaslandırılmışdır ki, 02.02.2016-cı il tarixində Patent və Əmtəə Nişanları Mərkəzi "Johnson & Johnson, a New Jersey corporation" məxsus "ONETOUCH SELECT PLUS SIMPLE" əmtəə nişanıını (№ 2016 32729 iddia sənədi) 10-cu sinifin (*qanda şəkərin səviyyəsinin yoxlama qurğuları; qlükometrlər)* əmtəələri üzrə qeydiyyata alınması haqqında qərar vermişdir.

İddia edilmiş əmtəə nişanı dörd sözdən "ONETOUCH", "SELECT", "PLUS" və "SIMPLE" ibarət olan söz birləşməsini ifadə edir. 26.09.2017-ci il tarixində ekspertiza tərəfindən iddia edilmiş əmtəə nişanının qeydiyyatı haqqında qərar çıxarılmış, lakin söz birləşməsi onun tərkibində olan ayrı söz elementlərinə hüquqi mühafizə verilmədən

bütövlükdə qeydiyyata alınmışdır. İddiaçı ekspertizanın “ONETOUCH”, “SELECT”, “PLUS” və “SIMPLE” sözlərinə hüquqi mühafizənin verilməməsi haqqında qərarı ilə razı deyil. Daha əvvəl ekspertiza mərhələsində “ONETOUCH SELECT” söz birləşməsinin qeydiyyatına dair Belçika firması olan “Janssen Pharmaceutica NV” adına qeydiyyata alınmış analoji IR 959731 saylı beynəlxalq qeydiyyatlı əmtəə nişanının sahibindən razılıq məktubu alınmışdır. 24.01.2008-ci il tarixində qeydiyyata alınmış və 29.05.2008-ci il tarixində Azərbaycan barəsində iddia edilmiş bu iddia sənədi üzrə 10-cu sinif barəsində eyni – *Qanda qlükozanın səviyyəsinin ölçülməsi və monitorinqi üçün tibbi alətlər* əmtəələri ilə əmtəə nişanı onun tərkibinə daxil olan ayrı sözləri disklamasiya edilmədən bütövlükdə qeydiyyata alınmışdır. Beləliklə, IR 959731 qeydiyyatı üzrə “ONETOUCH” və “SELECT” sözlərinə hüquqi mühafizə verilmişdir. Yuxarıda qeyd olunanları nəzərə alaraq “ONETOUCH SELECT PLUS SIMPLE” əmtəə nişanının “ONETOUCH” və “SELECT” sözlərinin disklamasiyası ilə qeydiyyatı barəsində ekspertizanın 26.09.2107-ci il tarixli qərarı düzgün deyil, çünki IR 959731 saylı beynəlxalq qeydiyyat üzrə eyni sözlərin qeydiyyata alınması haqqında ekspertiza tərəfindən çıxarılmış qərara ziddir. “ONETOUCH SELECT PLUS SIMPLE” əmtəə nişanının tərkibində olan “PLUS” və “SIMPLE” sözləri haqqında isə aşağıdakıları iddia edilmişdir. İddia edilmiş “ONETOUCH SELECT PLUS SIMPLE” nişanı iddiaçı tərəfindən öz məhsullarının markalanması üçün istifadə olunan vahid və ayrılmaz söz birləşməsidir. İstehlakçılar bildirilmiş nişanı məhz söz birləşməsi şəklində qəbul edirlər, buna görə də ekspertizanın nişanın tərkibinə daxil olan sözlərə ayrı-ayrılıqda baxmaq və onları disklamasiya etmək əsasları yoxdur. İddiaçının “ONETOUCH” və “ONETOUCH SELECT” əmtəə nişanlarının Azərbaycanda disklamasiyasız qeydiyyatları və eləcədə bildirilmiş nişanın digər ölkələrdə disklamasiyasız qeydiyyatları vardır.

Yuxarıda şərh olunanları nəzərə alaraq və “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında“ Azərbaycan Respublikasının Qanunun 15-ci maddəsini rəhbər tutaraq ekspertizanın qərarını yenidən nəzərdən keçirməyi və “Johnson & Johnson, a New Jersey corporation” adına olan 10-cu sinif əmtəələri üzrə “ONETOUCH SELECT PLUS SIMPLE” əmtəə nişanının (iddia sənədi № 2016 32729) tərkibində olan ayrı sözlərin disklamasiyasını imtina etməyi Apellyasiya şurasından xahiş etmişdir.

Apellyasiya şurası etiraz ərizəsinə baxaraq, etiraz üzrə məruzəni, iddiaçının nümayəndəsi patent müvəkkili T.A.Yaqubovanın çıxışını dinləyib, hesab etdi ki, iddia qismən təmin edilməlidir.

Apellyasiya şurası müəyyən etdi ki, “ONETOUCH SELECT PLUS SIMPLE” adlı əmtəə nişanının 10-cu sinif əmtəələri üzrə qeydiyyata alınmasına dair 02.02.2016 il tarixində 2016 32729 nömrəli iddia sənədi “Johnson & Johnson, a New Jersey corporation” şirkəti tərəfindən patent müvəkkili vasitəsilə Sənaye Mülkiyyəti Obyektlərinin Ekspertizası Mərkəzinə (AzPatent) verilmişdir.

Apellyasiya şurası müəyyən etdi ki, “ONETOUCH SELECT PLUS SIMPLE” adlı əmtəə nişanının qeydiyyata alınması haqqında qərar 26.09.2017 tarixində verilmişdir. Həmin qərarın (526) nömrəli kodun altında xüsusi qeydində göstərilmişdir ki, *“Əmtəə nişanındakı “*ONETOUCH SELECT PLUS SIMPLE” *söz birləşməsi elementlərinə ayrı-ayrılıqda müstəqil hüquqi mühafizə verilmədən bütövlükdə qorunur”.*

İddiaçı qərarın (526) nömrəli kodun altında xüsusi qeydi ilə razı olmamışdır. İddiaçının nümayəndəsi patent müvəkkili T.A.Yaqubova Apellyasiya şurasına etiraz ərizəsini vermişdir.

Apellyasiya şurası müəyyən etdi ki:

“Janssen Pharmaceutica NV” */ünvanı – Turnhoutseweg 30, B-2340 BEERSE, Belgium/* şirkəti tərəfindən **“ONETOUCH SELECT”** əmtəə nişanı 24.01.2008-ci il tarixdə 10-cu sinif əmtəələri üzrə 959731 saylı beynəlxalq qeydiyyata alınmış, 29.05.2008-ci il tarixində Azərbaycan Respublikasına iddia edilmiş və 10-cu sinifə aid eyni “q*anda qlükozanın səviyyəsinin ölçülməsi və monitorinqi üçün tibbi alətlər”* əmtəələri ilə əmtəə nişanı onun tərkibinə daxil olan ayrı-ayrı sözləri disklamasiya edilmədən bütövlükdə

qeydiyyata alınmışdır. "Janssen Pharmaceutica NV" şirkəti tərəfindən **"ONETOUCH"** əmtəə nişanı 14.08.2003-cü il tarixdə 01,05,10-cu sinif əmtəələri üzrə 809882 saylı beynəlxalq qeydiyyata alınmış, Azərbaycan Respublikasına iddia edilmiş və əmtəə nişanı onun tərkibinə daxil olan ayrı-ayrı sözləri disklamasiya edilmədən bütövlükdə qeydiyyata alınmışdır.

13 mart 2017-ci il tarixli razılıq məktubuna əsasən 959731 saylı "ONETOUCH SELECT" əmtəə nişanının sahibi "Janssen Pharmaceutica NV" şirkəti, "Johnson & Johnson.a New Jersey corporation" şirkətinə onun "ONETOUCH SELECT PLUS SIMPLE" əmtəə nişanının 10-cu sinifə aid "q*anda şəkərin səviyyəsinə nəzarət edən cihaz: qlükometr aparatı" əmtəələri üzrə* Azərbaycan Respublikası ərazisində qeydiyyata alınmasına və istifadəsinə razılıq vermişdir.

Apellyasiya şurası hesab edir ki, "ONETOUCH SELECT PLUS SIMPLE" söz birləşməsində "ONETOUCH", və "SELECT" sözləri mühafizə olunan element kimi sayılmalıdır.

Şərh edilənlərə əsasən, "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikası Qanununun 1-ci, 4-cü və 15-ci maddələrinin müddəalarını rəhbər tutaraq Apellyasiya şurası

Qərara aldı

1. "ONETOUCH SELECT PLUS SIMPLE" adlı əmtəə nişanının *(*2016 32729 *nömrəli iddia sənədi)* 10-cu sinif-"*qanda şəkərin səviyyəsinin yoxlama qurğuları; qlükometrlər"* əmtəələri üzrə qeydiyyata alınmasına dair ekspertizanın 26.09.2017 il tarixli qərarında (526) nömrəli kodun altında xüsusi qeydə qarşı *(mühafizə olunmayan elementlər haqqında)* iddiaçının nümayəndəsi patent müvəkkili T.A.Yaqubova tərəfindən Apellyasiya şurasına verilmiş etiraz ərizəsi əsaslı hesab edilsin və iddia qismən təmin edilsin.

2. "ONETOUCH SELECT PLUS SIMPLE" adlı əmtəə nişanının *(*2016 32729 *nömrəli iddia sənədi)* 10-cu sinifə aid "*qanda şəkərin səviyyəsinin yoxlama qurğuları; qlükometrlər"* əmtəələri üzrə qeydiyyata alınmasına dair ekspertizanın 26.09.2017 il tarixli qərarında (526) nömrəli kodun altında xüsusi qeyd *"Əmtəə nişanındakı "*ONETOUCH SELECT PLUS SIMPLE" *söz birləşməsi elementlərinə ayrı-ayrılıqda müstəqil hüquqi mühafizə verilmədən bütövlükdə qorunur"* dəyişiklik edərək yeni redaksiyada verilsin:

"Əmtəə nişanında "PLUS" və "SIMPLE" sözləri mühafizə olunmayan elementdir."

3. Həmin Qərarın 1-ci və 2-ci bəndlərində göstərilənləri nəzərə alaraq, əmtəə nişanları Dövlət reyestrində "ONETOUCH SELECT PLUS SIMPLE" adlı əmtəə nişanı 10-cu sinif-"*qanda şəkərin səviyyəsinin yoxlama qurğuları; qlükometrlər"* əmtəələri üzrə qeydiyyata alınaraq, (526) nömrəli kodun altında qeyd edilsin ki: "PLUS" və "SIMPLE" sözləri mühafizə olunmayan elementdir.

Apellyasiya şurasının sədri Z.T.Hacıyev

Üzvləri: N.F.Nəsibova

R.N.Hüseynəliyev